# Charles'in kitabxanası






Bakıda fəaliyyət göstərən kitab dükanlarından biri də daha çox onlayn satış həyata keçirən “Charles'in kitabxanası”dır. Bu kiçik kitab evində kitablara sevgi, mütaliəyə maraq bəlkə də böyük, işıqlı kitab dükanlarından daha çoxdur. “Kitab evi” dedim, ona görə ki, bura oxucular üçün əsl evdir. Xatırladım ki, kitab evi Çarlz Bukovskinin şərəfinə bu cür adlandırılıb. Burada Azərbaycan, rus, türk və ingilis dillərində hər cür oxucuya münasib kitablar var. Bu dükanın özəlliyi ondadır ki, satışı daha çox kitabları “facebook” sosial şəbəkəsində elanlar verməklə həyata keçirilir. Bu minvalla xeyli müştəri toplamış kitabxana kitabları həm satır, həm də kirayəyə verir. Azərbaycan dilində nəşr olunmuş kitabların həftəlik kirayəsi 1 manat, xarici dillərdəkilərin isə 2 manatdır. Bu mağazaya hətta abunə də yazılmaq olar. Aylıq 5 manat ödəməklə həftəyə 1 kitab kirayə verirlər. Bu xidmətdən daha çox tələbələr yararlanır. Bəzən 10-15, bəzən də daha bahalı kitabları almağa maddi imkan tapmayan tələbələr bu cür gözəl xidmətdən istifadə edirlər.

Bu dükanda ən çox satılan Rövşən Abdullaoğlunun “Bu şəhərdə kimsə yoxdur” kitabıdır. İkinci yerdə Aleksandra Kaveliusun “Leyla” romanıdır, kitabın bütün nüsxələri satılıb. Menecerin dediyinə görə, tələbat çoxdur, kitabı soruşanlar az deyil. Məhəbbət və detektiv romanları daha çox alınır. Ciddi ədəbiyyata maraq olduqca azdır. Detektiv janrında yazanlardan ən çox Çingiz Abdulayevin kitabları (Azərbaycan və rus dillərində) satılır.

Son vaxtlar gənc yazıçıların da kitablarında diqqət çoxalıb. OARın “Yalnızlıqdan şizofreniyaya” romanı satışı artıb. Nəşri bitib. 500 tirajla çap olunmuş kitabı təxminən 100-ü bu mağazada satılıb. Sərxan Əzizin “Gicbəsər” kitabı da çox maraq doğurduğundan yaxşı alınıb. Gənc motivatorlardan Coşqun Kərimovun “Kvan” kitabı çapdan çıxmamış sifarişlə xeylisi satılmışdı. Son zamanlar, ümumiyyətlə, motivasiya kitabları alanların sayı artıb. Nicat Həşimovun yeni “İndulgensiyalar” kitabını sifariş edənlər var. Qaraqan, Elxan Elatlı, Varisin kitabları da rəflərdə qalmır. Xanımlardan Məsudə Cabbarın kitabları hədsiz çox satılır. Söhbətimizin bu yerində xanım müştərinin bir az öncə kirayə götürdüyü Məsudə Cabbarın “Oynadığımız son oyun” kitabını geri qaytardı. Kitabın ilk səhifəsindən bir cümlə oxuyub tamamilə anlaşılmaz olduğunu bildirdi. Bu xanımın narazılığına baxmayaraq, bu kitab ən çox satılanlar siyahısındadır.




Başqa dillərdə də olan kitablara da tələbat var. Türk dilində kitablar daha çox satılır. Azərbaycanca kitablar tərcümə, redaktə, hətta korrektə baxımından qüsurlu olduğundan oxucular daha çox türk dilində oxumağa üstünlük verirlər. Bu tendensiya həm də dillərimiz arasındakı yaxınlığa görədir.

Sentimental əsərlərə də tələbat çoxalıb. İnsanlar elə bil beyinlərini yormaq yox, oxuyub ancaq ağlamaq, xəyallara dalmaq, ah çəkmək istəyirlər. Dünya klassiklərindən daha çox Dostoyeski və Tolstoyun kitabları satılır. Ara-sıra Remark, Markesin də əsərlərini sifariş edənlər tapılır. Oxucular arasında Orxan Pamukun kitablarını oxumaq da bir zaman dəb imiş, ancaq indi az hallarda onun əsərlərini alırlar.

Bizim yazıçılardan İsa Muğanna, Salam Qədirzadənin kitablarını da istəyənlər tapılır. “Xan” nəşriyyatının “Xatirə” seriyasından nəşr edilən kitablarının da oxucuları var. Şeir kitablarına maraq çox azdı, hətta yox səviyyəsindədir. Ancaq Aqşin Yenisey, Cəlil Cavanşirin kitablarının az-çox alıcısı var. Daha çox Aqşinin kitabları satılır. Oşonun kitabları ötən illərdə daha dəbdə idi, indi isə daha çox Freydin əsərləri alınır. Den Braunun da kitablarının satışı yaxşıdır.

Valideynlər övladlarını maarifləndirməkdən ötrü ensiklopedik kitabları daha çox alırlar.

Orada olduğum müddətdə oxucular - müştərilər gəlir, müxtəlif kitablarla maraqlanırdılar. Məlum oldu ki, bəzi oxucular milli yazıçıların Azərbaycan dilini lazımı səviyyədə bilməməyindən şikayətçidirlər. Bir cümlədə üç zaman işlədən “yazıçının” adını çəkməsələr də, xeyli narazı qaldıqlarını, həmin cür kitablara sərf olunan kağızlara və dolayısıyla ağaclara heyfsiləndiklərini söylədilər. Qızlardan biri dedi: “O kitablar ağac kimi daha çox faydalıdır!”

Təəssüf ki, bu dükanda da Qurban Səidin “Əli və Nino” romanını oxuya bilməyən müştəri ilə də rastlaşdıq. Həmin xanım Səbahəddin Alinin “Xəz paltolu madonna” və Xalid Hüseynin “Və dağlardan səda gəldi” kitablarının mütaliəsindən zövq aldığını dedi.

Dükandan çıxıb metronun Elmlər Akademiyası stansiyası yaxınlığında tələbələrlə söhbətləşdim. Çoxu mütaliə etmir, heç dərs kitablarını da oxumadıqlarını fəxrlə dilə gətirirdilər. Amma aralarında “şükürlü”ləri də var idi. Onlar Tolstoyu, Turgenevi, Mirzə Fətəli Axundovu, Cəlil Məmmədquluzadəni, tanıdılar... Buna da şükür...

**Xanım AYDIN**



